*https://doi.org/10.30546/114578.2025.9.1026*

# SEYİD ƏZİM ŞİRVANİNİN AZƏRBAYCAN MƏTBUATININ BANİSİ HƏSƏN BƏY ZƏRDABİYƏ MÜNASİBƏTİ

**Həmzə Əliyev**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/ 0000-0003-2344-8388*
*hamza.aliyev@adpu.edu.az*

**Xülasə**

Füzuli ədəbi məktəbinin davamçısı, eyni zamanda demokrat şair olmuş Seyid Əzim Şirvaninin yaradıcılığının böyük bir hissəsi maarifçilik ideyalarının təbliğinə həsr edilmişdir. Onun elmi, təhsili təbliğ edən əsərlərinin bir qismi Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabiyə xitabən yazılmışdır. Hər iki sənətkarın əsas məqsədi Azərbaycan xalqının maariflənməsi olduğu üçün onlar arasında sıx eyni zamanda möhkəm əlaqələr mövcud olmuşdur.

Məqalədə Seyid Əzim Şirvaninin Həsən bəy Zərdabiyə olan münasibəti, onların qarşılıqlı əlaqələri, maarifçilik ideyalarının təbliğində birgə fəaliyyəti araşdırılmış, Seyid Əzimin Həsən bəyə ünvanlandığı mənzumələr, xitablar fikir süzgəcindən keçirilmişdir.

**Açar sözlər:** maarifçilik ideyaları, qəzet, mətbuat, mənzumə.

# SEYID AZIM SHIRVANI'S ATTITUDE TOWARDS HASAN BEY ZARDABI, THE FOUNDER OF THE AZERBAIJANI PRESS

**Hamza Aliyev**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

A large part of the creative work of Seyid Azim Shirvani, a follower of the Fuzuli literary school and also a democratic poet, was devoted to the promotion of the ideas of enlightenment. Some of his works promoting science and education were addressed to Hasan bey Zardabi, the founder of the Azerbaijani press. Since the main goal of both artists was the enlightenment of the Azerbaijani people, there were close and strong ties between them.

The article examines Seyid Azim Shirvani's attitude towards Hasan bey Zardabi, their mutual relations, and their joint activities in promoting the ideas of enlightenment, and analyzes the poems and addresses addressed by Seyid Azim to Hasan bey.

**Key words:** enlightenment ideas, newspaper, press, poetry.

## ОТНОШЕНИЕ СЕЙИДА АЗИМА ШИРВАНИ К ГАСАН БЕКУ ЗАРДАБИ, ОСНОВАТЕЛЮ АЗЕРБАЙДЖАНСКОЙ ПРЕССЫ

**Гамза Алиев**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Значительная часть творчества Сейида Азима Ширвани, последователя физулинской литературной школы и поэта-демократа, была посвящена пропаганде идей просветительства. Некоторые его произведения, пропагандирующие науку и образование, были адресованы Гасан беку Зардаби, основоположнику азербайджанской печати. Поскольку главной целью обоих художников было просвещение азербайджанского народа, между ними существовали тесные и прочные связи.

В статье рассматривается отношение Сеида Азима Ширвани к Гасан беку Зардаби, их взаимоотношения и совместная деятельность в пропаганде идей просветительства, анализируются стихотворения и обращения Сеида Азима к Гасан беку.

**Ключевые слова:** идеи просвещения, газета, пресса, поэзия.

### Giriş/Introduction

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında" 4 aprel 2025-ci ildə imzaladığı Sərəncam elmi ictimaiyyətin, ziyalıların, ədəbiyyatşünasların və dilçi alimlərin diqqətini bir daha görkəmli Azərbaycan şairi, maarifçi Seyid Məhəmməd oğlu Seyid Əzim Şirvaniyə, onun bədii irsinə yönəltmiş, alimlər qarşısına görkəmli ədibin cəmiyyətin sosial-mədəni tərəqqisi uğrunda apardığı mübarizə yolunu yenidən araşdırmaq vəzifəsini qoymuşdur.

Professor Feyzulla Qasımzadə Seyid Əzim Şirvaninin poetik yaradıcılığını təxminən beş qismə bölür:

1. Məhəbbəti tərənnüm edən əsərlər; 2. Şərab haqqında yazılanlar; 3. Dini ehkam və ruhanilik əleyhinə olanlar; 4. Müəllifin öz yaxın və müasirlərinə və

dostlarına münasibətini bildirənlər; 5. Dini və fəlsəfi məzmun daşıyanlar [Qasımzadə, 1966:407].

Görkəmli ədəbiyyatşünas alimin bu təsnifatı təqdiredicidir, lakin şairin yaradıcılığı ilə yaxından tanış olduqda, böyük Seyid Əzimin nəzm əsərlərini XIX əsrin prizmasından nəzərdən keçirdikdə təsnifat üzrə bəzi nüanslara yenidən aydınlıq gətirmək ehtiyacı yaranır.

Xüsusilə F.Qasımzadənin təsnifatında yer almış “Müəllifin öz yaxın və müasirlərinə və dostlarına münasibətini bildirənlər şeirlər” bölgüsünə istinad edərək şairin müasiri olmuş, “Əkinçi” qəzeti ilə Azərbaycan mətbuatının əsasını qoymuş görkəmli Azərbaycan ziyalısı Həsən bəy Səlim bəy oğlu Məlikova (Həsən bəy Zərdabiyə) münasibətini, Həsən bəy Zərdabiyə verdiyi qiyməti təyin etmək, Həsən bəy Zərdabini Seyid Əzimin gözü ilə, sözü ilə tanımaq mümkündür.

**Əsas hissə.** Məlumdur ki, dərin biliyi, geniş dünyagörüşü və mütərəqqi ideyaları ilə seçilmiş Seyid Əzim Şirvani dünyada və XIX əsr Azərbaycanında baş vermiş prosesləri yaxından izləmiş, yaşadığı mühitdə baş vermiş hadisələrə dərhal reaksiya vermişdir.

Həsən bəy Zərdabinin maarifçi-demokrat olması, Azərbaycan mətbuatının əsasını qoyması bir çox mütərəqqi ideyalar daşıyıcısı kimi Seyid Əzimin də diqqətini cəlb etmişdir. Böyük şairin Həsən bəy Zərdabi haqqında təsəvvürlərini şərh etməzdən əvvəl ədibin Zərdabinin əsasını qoymuş olduğu milli mətbuatımıza – “Əkinçi” qəzetinə olan münasibəti diqqəti cəlb edir. Şair “Qəzet nədir” adlı mənzuməsini sual üzərində quraraq yazır:

*Dün sual etdi bir nəfər cahil-*
*Ki, qəzetdən nədir bizə hasil?*
*Bu Həsən bəy nə istəyir bizdən,*
*Doldurub aləmi quru sözdən...* [Şirvani, 1969:55]

Mənzumədə sual davam etdirilir, lakin hər misrada oxucuya ünvanlanmış bədii sual əslində Həsən bəy Zərdabinin xalqın maariflənməsi yolunda gördüyü böyük işlərin poetik təhkiyə ilə izahıdır. Şeirin beşinci misrasında “Bu Həsən bəy nə istəyir bizdən” bədii sualının cavabı sual şəklində verilir, şair vurğulayır ki, Həsən bəy əkindən, ziraətdən danışır, süd hazırlamaq, qatıqdan yağ hazırlamaq, pendir tutmaqdan, süd məhsullarını saxlamaqdan danışır. Poetik təhkiyə davam etdikcə məlum olur ki, qəzetdə dünyada baş vermiş yeniliklərə toxunulur, maşının icadından, elmdən, təhsildən danışılır. Lakin həməsrlərinin qəzetdə verilmiş bu yeni xəbərlərə münasibəti fərqlidir. Yeniliyə, müasirliyə

qarşı çıxmış mühafizəkar cahil insanlar qəzetdə yazılmış bu xəbərlərin onlara lazım olmadığı qənaətindədir.

*Biz məgər bilmirik yağı tutmaq,*
*Pendiri saxlayıb pula satmaq*? [Şirvani, 1969:55].

deyən cahillər maşının onlara lazım olmadığı, torpağı şumlamaq üçün beş cüt kəlin, buğdanı biçmək üçün çinin, xırmanda buğdanı qabığından ayırmaq üçün vəlin yetərli olduğunu düşünürlər. Buna rəğmən Seyid Əzim Şirvani Həsən bəy Zərdabinin − "Əkinçi"nin əsas qayəsini anlayır və yazırdı:

*Nə gərəkdir yazıb ki, ol sadə:*
*Fəhlələr cəng edir Amerikadə* [Şirvani, 1969:55].

Məlumdur ki, "Əkinçi" sadəcə əkin və ziraət xəbərlərinin çapı ilə məşğul deyildi, qəzetin əsas missiyası, xalqı oyatmaq, fəhlə və kəndlilərə öz hüquqlarını başa salmaq idi. Müəllifin sadə dillə insanlara söyləmək istədiyi əsas fikir də bu idi ki, qəzet oxumaqla fəhlələr, kəndlilər dünyada xalqların oyandığını, öz haqq və hüquqlarını qoruduğunu öyrənə bilər, onlara zülm və istibdad altında saxlamış çar məmurlarına qarşı etiraz edə bilərlər.

Şairə cahillərin ünvanlandığı "suallar" bitdikdən sonra müəllif onlara cavab verir. Ədib qəzeti "asimanın vəhyi", bir növ Allahın səsi, xəbərlərin anası, hətta "Tanrıların yaşadığı yerdən xəbər gətirən" adlandırır:

*Ümmül-əxbar, müxbirül-asar,*
*Kaşüfür-rəmz, vacübül, əsrar* [Şirvani, 1969:55].

Qəzetin bədii təsvirindən sonra şair son səkkiz beytində "Əkinçi" nin təzə xəbərlər verdiyini, islam aləmini canlandırdığını, beynəlxalq aləmdə tanındığını vurğulayır.

*Gah Peterburqdan olur guya,*
*Gah olur Hindi-Şərqdən peyda,*
*Gah Dunaydan qəzet verir xəbəri,*
*Gah Parisdən gəlir onun əsəri...*[Şirvani, 1969:55].

Seyid Əzim Şirvaninin xalq şairi Süleyman Rüstəm tərəfindən 1969-cu ildə Bakıda tərtib edilmiş II cildində "Həsən bəy Məlikova" adlı 6 şeir yer almışdır. Bu şeirlərin adları eynidir, lakin tərtibçi bu şeirləri fərqləndirmək məqsədi ilə şeirin adı ilə bərabər mötərizədə şeirin ilk misrasından və ya məktubun ilk cümləsindən götürülmüş ifadə ilə təqdim etmişdir. Bundan başqa, "Həsənbəy Məlikova" ("Əkinçi" qəzetinə yardım üçün) adlı şeirdən başqa

digərləri – "Həsənbəy Məlikova" (Ey Həsən bəy, müəllimi-dana), "Həsənbəy Məlikova" (Möhsünə cavab və ya Ey bizə xeyirxah olan Möhsün), "Həsənbəy Məlikova" (Ey Həsən bəy, əmiri-alişan) şeirləri sadəcə nəzmlə məktub şəklində, "Həsənbəy Məlikova" (Alişan Həsən bəy...), "Həsən bəy Məlikova" (Müəllimi-xeyirxah) həm nəsrlə, həm də nəzmlə yazılmış məktubdan ibarətdir.

Qeyd olunan mənzumələrdə Həsən bəy Zərdabinin bədii, eyni zamanda real obrazı canlandırılır. Məsələn, "Həsənbəy Məlikova" ("Əkinçi" qəzetinə yardım üçün) şeirini tərtibçi "Müxtəlif şeirlər" bölməsində təqdim edir. Məsnəvi şəklində yazılmış bu şeirin adından sonra verilmiş "Əkinçi" qəzetinə yardım üçün" izahı, görünür, müəllifin özünə aiddir.

Sözünə salamla başlamış şair iki qrup insana xitab edir, onların bir qismi şanlı-şöhrətli olanlar, digəri isə bəla oxuna tuş gələnlərdir.

*Əssəlam, ey əhaliyi-zişan!*
*Ey olanlar bəla oxuna nişan* [Şirvani, 1969:58].

Növbəti misralarda "bəla oxuna nişan olanlar"ın hansı bəlaya düçar olduqları açıqlanır, şair vurğulayır ki, bu insanların dərdi nadanlıqdır və fikrini davam etdirərək yazır ki, Həsən bəy Zərdabi onların nadanlıq bəlasına çarə edəcək insandır.

Müəllif Həsən bəy Zərdabinin gördüyü işləri sadalayır, qeyd edir ki, Həsən bəy dövlətdən icazə alaraq öz dilimizdə qəzet çap etdirmişdir. Onun Azərbaycan dilində qəzet çap etdirməsində maddi marağı yoxdur, məqsədi elm toxumu əkməklə insanları oyatmaqdır. Təkcə bu xidməti insanların rəhmətini qazanmağa yetərlidir.

Seyid Əzim "Əkinçi" qəzetinin Azərbaycan dilində olmasına xüsusi önəm verir, və qeyd edir ki, başqa dillərdə də qəzetlər vardır, lakin onların bizə faydası yoxdur, çünki:

*Bilmirik rus, ya firəng dili,*
*Hər dilin rəmzini öz əhli bilir* [Şirvani, 1969:58].

Həsən bəy Zərdabini əsilzadə, aristokrat adlandırmış müəllif onun qəzetini qiymətdə azərbaycanlıların cəlalı, öyüd verəni adlandırır. "Əkinçi"ni yüksək qiymətləndirməklə yanaşı o, yaxşı insanlara üz tutub H.Zərdabiyə, onun qəzetinə yardım etməyə çağırır:

*Bəs "Əkinçi" cəlalımızdı bizim,*
*Nasehi-xoşməqalımızdı bizim.*
*Səy edin, ey güruhi-niksifat!*

*Etməsin ta bizim "Əkinçi" vəfat* [Şirvani, 1969:58]

Şeirin son beytlərinə yaxın şair oxucularına eyhamla qəzetin onlara daha çox nə üçün lazım olduğunu çatdırır. O yazır ki, əgər "Əkinçi" sizə müharibədən xəbər etməsə belə, onu tərk etməyin, axı şikayət etmək, giley-güzar etmək bizə gərək deyil, belə söhbətlər bizə qadağandır. Görünür, şair eyhamla oxuculara bildirmək istəyirdi ki, "Əkinçi" yə ciddi nəzarət, senzura vardır, bir az anlayış göstərib "siyasi" səciyyəli xəbərlərin olmadığı üçün qəzetdən uzaqlaşmaq olmaz, heç olmazsa, biz sənət üçün, əkin xəbərlərini, məişətimizlə bağlı xəbərlər üçün qəzetə dəstək olmalıyıq:

*Biz gərək səy edək məişət üçün,*
*Sənətü kəsb üçün, ziraət üçün* [Şirvani, 1969:58].

"Əkinçi" qəzeti təkcə ziraət xəbərlərini və ya siyasi xəbərlərin xalqa çatdırılması üçün vasitə deyildi, o həm də dövrünün ziyalıları üçün tribuna idi. Bu, Seyid Əzimin "Həsənbəy Məlikova"(Ey Həsənbəy, müəllimi dana!) adlı məktubunda daha qabarıq görünür. Şair məşhur "Qafqaz müsəlmanlarına xitab" şeirini "Əkinçi" qəzetində çap etdirmək üçün aşağıdakı xahişlə Həsən bəy Zərdabiyə göndərmişdir:

*Ey Həsənbəy, müəllimi-dana!*
*Ey edən əhli-aləmi ehya!*
*Ey çatan alələmə səfa səndən,*
*Eyləyir Seyid iltica səndən -*
*Ki bu məktub kim xəyalımdır,*
*Əhli-Qafqazə ərzi-halımdır;*
*Edəsən çap, ey gözüm nuri,*
*Ta ola ruzigar məşhuri* [Şirvani, 1969:117].

Nümunədən də göründüyü kimi, müəllif Həsən bəyi "müəllimi-dana" müəllimlərin biliklisi, gözünün nuru, ətrafındakı insanları canlandıran, insanlara rahatlıq gətirən adlandırır və ona pənah gətirdiyini, xəyalı olan məktubunu − Qafqaz əhalisinə olan müraciətini çap etdirməsini xahiş edir.

Şairin Həsən bəyə olan bu kiçik müraciətnaməsindən sonra isə əruz vəzninin xəfif bəhrində yazmış olduğu məşhur "Qafqaz müsəlmanlarına xitab" şeirini əlavə edir.

Qeyd etmək yerinə düşərdi ki, müəllif tərəfindən məktub adlandırılmış bu şeir onun maarifçilik ideyalarını əks etdirirdi. Şair məktubunda qafqazlıların, xüsusilə də azərbaycanlıların elm və mədəniyyət baxımından geri qalmasının

səbəbləri göstərir, bir ziyalı gözü ilə müşahidə etdiyi geriliyin səbəb olan amillərin həlli yollarını göstərir. “Qafqaz müsəlmanlarına xitab” şeiri o qədər mükəmməl əsərdir ki, yazıldığı, çap olunduğu dövrdən yüz əlli ilə yaxın vaxt keçməsinə baxmayaraq öz aktuallığını bu gün də qoruyub saxlayır. Təsadüfü deyildir ki, ali məktəblərin, orta məktəblərin VIII siniflərində tədris edilən Ədəbiyyat dərsliklərində qeyd etdiyimiz şeir tədris proqramlarına daxil edilmiş, Dövlət İmtahan Mərkəzinin nəşr etdirdiyi “Ədəbiyyat” dərs vəsaitində şərhlərlə birlikdə çap edilmiş, məzmunu ilə bağlı suallar ali məktəblərə qəbul imtahanlarında istifadə edilmişdir. Lakin burada diqqəti cəlb edən əsas məsələ Seyid Əzimin Həsən bəy Zərdabiyə olan etimadıdır, şair bilirdi ki, onun ürək sözlərini, öz doğma dilində yalnız Həsən bəy və onun “Əkinçi” qəzeti çatdıra bilərdi. Burada görkəmli ədəbiyyatşünas, professor Feyzulla Qasımzadənin fikrini xatırlamaq yerinə düşür: “Maarifçi şair üçün “Əkinçi” bir xitabət kürsüsü idi” [Qasımzadə, 1966:415].

Böyük mütəfəkkir öz gümanında yanılmamış, ona görə də Həsən bəyi digər əsərində “Alişan” – yüksək şərəf və şan sahibi adlandırır.

II cilddə “Həsənbəy Məlikova” adlı şeirlərin biri xalq şairi Süleyman Rüstəm tərəfindən “Alişan Həsən bəy” izahı ilə təqdim edilmişdir. Bu şeir digərlərindən bir qədər fərqli üslubdadır. Birincisi, şeirin əvvəlində müəllif tərəfindən Həsən bəyə nəsrlə yazılmış təşəkkür məktubu vardır. Şair burada Həsən bəyə onun müəllim kimi fəaliyyət göstərməsində yardım etdiyi üçün təşəkkür edir, sonra isə məktəblilər üçün kitab yazmasından bəhs edir: “Mən bir müxtəsər türki dilində “Zajon-Boj” kitabı yazmışam” istəyirəm onu “narodnı uçilişenin” direktoruna irsal edim ki, əgər mümkün olsa, çap olunsun, ta ki uşaqlar oxusunlar. Amma əgər sizin qəzetənin hürufiləri ilə çap olsa, məsləhətdir, çünki çox yaxşı, aydın oxunan xətdir” [Şirvani, 1969:124]. Məzmundan aydın olur ki, Seyid Əzim Şirvani maarifçi fikrilərini, məktəblə, təhsillə əlaqədar fikirlərini ilk növbədə Həsən bəy Zərdabi ilə bölüşürdü.

**Nəticə/Conclusion**

XIX əsr Azərbaycan ədəbiyyat tarixinin nəhəng simaları Seyid Əzim Şirvani və Həsən bəy Zərdabi arasında bağlılıq, onları birləşdirən əsas amil hər iki ədibin maarifçilik ideyaları vasitəsi ilə xalqı oyatmaq, geriliyin, cahilliyin qarşısını almaq, Azərbaycan xalqını dünyanın inkişaf etmiş xalqları sırasında görmək arzusu idi. Seyid Əzimin Həsən bəyə olan rəğbəti məhz bu amillə bağlı idi.

## ƏDƏBİYYAT/REFERENCES

1. Qasımzadə, F. (1966). XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. – Bakı: "Maarif". – 550 s.
2. Şirvani, S.Ə. (1969). Əsərləri. II cild. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. – 650 s.
3. Mir Cəlal, Hüseynov, F. (2019). XX əsr Azərbaycan ədəbiyyatı tarixi. – Bakı: "Elm və Təhsil". − 427 s.
4. Salamoğlu, T. (2016). Azərbaycan ədəbiyyatı: Mübahisələr, Həqiqətlər. − Bakı: "Orxan NPŞ MMC". – 320 s.
5. Kazımoğlu, K. (2015). Sənət qayğıları. – Bakı: "Elm və Təhsil". − 312 s.
6. Zeynalov, N. (1973). Azərbaycan mətbuat tarixi. I hissə. – Bakı: ADU-nun nəşriyyatı. – 210 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *29.08.2025*
*Qəbul edilib* *12.09.2025*
*Nəşrə tövsiyə edib* *Razim Məmmədov*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*